# TARİX

UOT 94 (479.24)

## AZƏRBAYCANIN GÜNEY ŞƏHƏRLƏRİNİN SOSİAL-İQTİSADİ VƏ MƏDƏNİ HƏYATINA ÜMUMİ BAXIŞ

**A.B.BAXŞƏLİYEV**
***Sumqayıt Dövlət Universiteti***
***elfe@box.az***

*XVI-XVII əsrlərdə Azərbaycanın güney şəhərlərinin iqtisadi həyatında ticarət və sənətkarlıq xüsusi əhəmiyyət kəsb etsə də, bu şəhərlər əsasən yarımaqrar xarakterlərini saxlayırdı. Daxili və xarici amillər şəhərlərin iqtisadi təkamülündə müsbət rol oynamış, ancaq bəzən tənəzzülə də səbəb olmuşdu. XVII əsrin son illərində Yaxın və Orta Şərq ölkələrində baş vermiş iqtisadi böhran Azərbaycanın şəhərlərindən də yan keçməmişdir.*

*Şəhərlər zamanın iqtisadi mərkəzləri olmaqla yanaşı, həm də mədəniyyət mərkəzləri idilər.*

**Açar sözlər:** Azərbaycan, Marağa, I Şah Abbas

Tədqiq edilən dövrün mənbələrindəki materialların təhlilindən əldə edilən nəticələrə əsasən demək olar ki, XVI əsrin sonu-XVII əsrdə Azərbaycanın güney şəhərləri sosial-iqtisadi roluna görə dünya, ölkə və vilayət miqyaslı şəhərlərdən ibarət idi. Bu dövrdə Təbriz, Ərdəbil, Qəzvin dövrünün çox böyük şəhərləri olub, nəinki ölkə miqyasında, həm də bütün Asiyada tanınan dünya miqyaslı şəhərlər idilər. XVII yüzillikdə Təbriz əhalisinin sayı, iqtisadi nüfuzu, böyüklüyü və əzəmətinə görə İsfahandan sonra ikinci şəhər hesab olunurdu. Urmiya və Həmədan vilayət əhəmiyyətli şəhərlər olsalar da, böyüklükləri və iqtisadi nüfuzlarına görə ölkə miqyasında da əhəmiyyətli mövqeyə malik idilər. Mərənd, Xoy, Salmas, Sultaniyyə, Marağa, Əhər, Zəncan isə vilayət miqyaslı şəhərlər idilər. Ancaq bu şəhərlər O.Əfəndiyevin yazdığı kimi, yarımaqrar xarakterli olmuş, sənətkarlığın kənd təsərrüfatından ayrılması hələ tam başa çatmamışdı. Bu şəhərlərin iqtisadi həyatında hələ də bağçılıq, bostançılıq, taxıl əkinçiliyi əhəmiyyətli rol oynayırdı. Dövrün Avropa səyyahlarının yazdıqlarından da görünür ki, Azərbaycan şəhərlərində bağ və bostanlar geniş sahələri tuturdu (1, 232). 1571-ci ildə Venesiya Respublikasının I Şah

Təhmasibin sarayına göndərdiyi səfir Vinçenso de Alessandri gündəliyində Təbriz şəhərinin yarımaqrar xarakteri haqqında məlumat vermişdi. O, yazır ki, şəhər darvazasından Qəzvin istiqamətində geniş ərazidə bağlar vardır. Şəhərdə 45 küçə və hər küçədə ağaclıq, bağ vardır. Buranın meyvələri keyfiyyəti və dadına görə hər hansı bir başqa ölkədə yetişən meyvələrdən üstündür (2, 91). Lakin onu da qeyd etmək lazımdır ki, bu dövrdə şəhərlərin öz aqrar mahiyyətini saxlamasına baxmayaraq onların bir çoxu inkişaf etmiş ticarət, sənətkarlıq və mədəni mərkəzlərə çevrilmişdilər. Bu şəhərlərin inkişafının həm xarici, həm də daxili səbəbləri vardır. Bu ilk növbədə, şəhərlər və onun hüdudlarında əmtəə istehsalı, ictimai əmək bölgüsü ilə əlaqədar olub, xarici və tranzit ticarətdən də asılı idi (1, 232).

XVII-XVIII əsrlərdə ayrı-ayrı sənət növləri sahəsində texniki tərəqqi az da olsa inkişaf etmişdi, sənət məhsulları öz keyfiyyətinə görə həm daxili, həm də xarici bazarların tələbatına cavab verirdi. Sənətkarlıq və ticarət şəhər iqtisadiyyatının əsasını təşkil edirdi. Şəhər sənətkarlığında isə toxuculuq və metalişləmə xüsusi əhəmiyyət kəsb edirdi (3, 102). Təbriz, Ərdəbil, Qəzvin şəhərlərində ipək, yun və pambıqdan toxunan müxtəlif çeşidli parçalara dünyanın bir çox ölkələrinin bazarlarında böyük tələbat vardı. Toxucular zərbaft, tafta, darai, atlas, qumaş, məxmər, qələmxari adlı cürbəcür parçalar toxuyurdular. Azərbaycanın güney şəhərlərində boyaqçılıq, dabbaqlıq, misgərlik, zərgərlik, dəmirçilik, dulusçuluq kimi sənət-peşə sahələri də vardır. Çini qablar istehsalı sahəsində yerli sənətkarlar çox böyük uğurlar əldə etmişdilər.

Şəhərlərdə ictimai əmək bölgüsünün tam dərinləşməsi, müxtəlif istehsal sahələrinin meydana gəlməsi və sənət-peşə sahəsindəki təkamül nəticəsində xırda emalatxanaların bir çoxu daxili əmək bölgüsü genişləndikcə manufaktura tipli karxanalara çevrilirdilər. Sənətkarlıq getdikcə ixtisaslaşır və bu sahədə əmək məhsuldarlığı daha da artırdı.

Azərbaycan əlverişli təbii-coğrafi şəraitə malik olduğundan, Avropa ölkələri ilə bir çox Asiya dövlətlərini əlaqələndirən beynəlxalq karvan yolları onun ərazisindən keçirdi. Beynəlxalq karvan yolları üzərində yerləşən şəhərlər həm ölkənin iqtisadi həyatında, həm də onun xarici aləmlə iqtisadi əlaqələrində önəmli yer tuturdu. XVI-XVII yüzilliklərdə ictimai əmək bölgüsünün güclənməsi, əmtəə istehsalının yaranıb genişlənməsi daxili bazarların meydana gəlməsinə və inkişafına müsbət təsirlər göstərirdi. Dövlət səviyyəsində həyata keçirilən iqtisadi siyasət də daxili ticarətin inkişafında az əhəmiyyət kəsb etməmişdir. 1665-ci ildə tamğa vergisinin ləğvi, 1611-ci ildə Təbriz əhalisinin iki il müddətində malcəhət vergisindən azad olunması, 1615-ci ildə məmalik-i məhrusə əhalisindən alınan mal-xərac vergisinin hər il bir ay ərzində ləğvi, karvan yollarının təhlükəsizliyinin təşkili, daxili və xarici ticarətin tərəqqisinə çox böyük təsirlər göstərmişdi. Ölkənin daxili və xarici ticarətində şəhərlər xüsusi rola malik idilər (3, 150).

I Şah Səfi (1629-1642) dövründə də həyata keçirilən daxili iqtisadi siyasət, daxili bazarların genişlənib inkişaf etməsinə, şəhərlər arasında ticarət

əlaqələrinin güclənməsinə müsbət təsirlər göstərmişdi. XVII yüzilliyin 50-ci illərində Azərbaycanda olmuş Osmanlı səyyahı Evliya Çələbi ölkə miqyasında iqtisadi yüksəlişi, ticarətin inkişafını diqqətdən qaçırmamışdır. O, Azərbaycan şəhərlərindən Təbriz haqqında yazırdı ki, burada 70-ə qədər ticarət sarayı, 7000 dükan vardır (4, 24). Bu zaman şəhərlərin daxili bazarlarında çarşı, qeysəriyyə və meydanlar xüsusi əhəmiyyət kəsb edən ticarət mərkəzləri idilər. Şarden yazırdı ki, Təbrizdə 15 min dükan vardır və bu şəhərin meydanı mən olduğum bütün şəhərlərdəki meydanlardan böyük olub gün, ərzində bura boş qalmır və burada hər cür mal satılırdı (5, 154). Güney Azərbaycanda Təbriz, Ərdəbil, Qəzvin, Urmiya, Həmədan əsas ticarət mərkəzləri idilər.

Səfəvi dövlətinin beynəlxalq iqtisadi əlaqələrində Azərbaycanın bir sıra güney şəhərləri xüsusi rola malik idilər. Ancaq bəzən bir çox iqtisadi və qeyri-iqtisadi amillər, xüsusilə də müharibələr Azərbaycanın güney şəhərlərinin iqtisadi həyatına zərbələr vurur, o cümlədən beynəlxalq əlaqələrini də məhdudlaşdırırdı. Bunu nəzərə alan Vinçenso de Alessandri yazır ki, krallığın bütün bölgələrindən Təbrizə mallar və karvanlar gəldiyindən, ticarət şəhəri hesab edilirdi. Lakin onun təsərrüfatı müharibədən çox zərər çəkmişdir. Məsələn, bu ölkədə bol olan ipəyin 2 yükünün dəyəri yalnız 400 sexindən çox idisə, indi onun dəyəri yalnız 200 sexindir. Hələbdən keçən yol indi istifadə edilmədiyindən, Hörmüz vasitəsilə gedən ticarətə heç kim nəzarət etmirdi. Mallar hələ də quru yol ilə İstanbula gedir və oradan da Moldaviyaya aparılaraq Polşa, Danimarka, İsveç və digər yerlərə paylanır (2, 92). Venesiya səfərindən xeyli sonra XVII əsrin ortalarında Səfəvi ölkəsinə gəlmiş fransalı tacir Tavernye isə Azərbaycanın güney şəhərlərinin xarici aləmlə əlaqələrindən bəhs edərkən Təbrizdə çoxlu ticarət malı və tacir olduğunu qeyd etmiş və göstərmişdir ki, bu şəhərin Rusiya, Türkiyə və İran arasında yerləşməsi onun beynəlxalq ticarətdə çox böyük rola malik olmasına təsir göstərmişdir. Səyyaha görə Təbriz osmanlılar tərəfindən dağıdıldıqdan sonra bərpa olunmuş və burada gözəl bazarlar tikilmişdi. Bütün Gilan ipəyi Təbrizə gətirilir, buradan Hələbə, İzmirə aparılırdı. Təbriz bir ticarət şəhəri kimi bütün Asiyada xüsusi əhəmiyyət kəsb edirdi. Təbriz tacirləri Hindistan, Rusiya, Qərbi Avropa ölkələri ilə fasiləsiz ticarət əlaqəsi saxlayırdı. Ərdəbil və Qəzvin də xarici aləmlə ticarət əlaqəsində önəmli rola malik idilər. Bu şəhərlərdən Avropa ölkələrinə xam ipək, ipək parça, qızıl və gümüşdən hazırlanmış zərgərlik məlumatları ixrac olunurdu. Qırmızı adlı Xoy boyası, Qəzvin püstəsi əsasən Hindistana ixrac edilirdi. Azərbaycan şəhərlərinə idxal edilən mallar içərisində sincab və samur xəzi, morj dişi, kətan, mahud əsas yer tuturdu və daxili bazarlarda bu mallara tələbat daha çox idi (6, 67; 5, 154-156; 3, 152).

XVII yüzilliyin sonlarında Səfəvi dövləti miqyasında vergilərin artırılması, gömrük rüsumu alınmasının icarəyə verilməsi, dövlət məmurlarının özbaşınalığının artması ilə səciyyəvi olan hərbi-siyasi, ideoloji, iqtisadi böhran başlamışdı ki, bütün bunlar Azərbaycan şəhərlərindən də yan keçməmişdi. Baş verən iqtisadi böhran Azərbaycan şəhərlərində karxanaların təkamülünə ciddi

zərbə vuraraq onların manufakturalara çevrilməsinin qarşısını almışdı. Bu dövrdə Azərbaycan şəhərlərində sənətkarlığın geniş miqyasda tənəzzülü başlanmışdı (55, 64).

Ölkə miqyasındakı iqtisadi böhran şəhərlərin daxili ticarətinə ciddi zərbə vurmaqla onların beynəlxalq iqtisadi əlaqələrini də zəiflətdi. S.Onullahinin zəngin mənbə materiallarının müqayisəli təhlili əsasında XVII əsrin son illərində Təbriz şəhərində baş vermiş iqtisadi böhranın səbəbləri barədə qeydləri əslində Azərbaycanın bütün güney şəhərləri üçün səciyyəvidir. O yazır ki, XVII əsrin 90-cı illərində Azərbaycan və Gilan ipəyinin keyfiyyətinin aşağı düşməsi, Avropa ölkələrində toxuculuğun inkişafı ilə əlaqədar olaraq Təbrizdə toxunmuş ipək parçalara xarici bazarlarda tələbatın azalması bu şəhərlə yanaşı, digər güney şəhərlərində də iqtisadi böhranın əsas səbəblərindən idi. Artıq Azərbaycanın güney şəhərlərində toxunan zərli parçaları Hindistan və Osmanlı dövlətinin bazarlarında da almırdılar. Nəticədə ölkə miqyasında xam ipəyin də istehsal həcmi azalır. O cümlədən gümüş böhranın baş verməsi, qəlp pulların ticarət dövriyyəsinə kütləvi şəkildə daxil olması da həm sənətkarlığın, həm də ticarətin tənəzzülünə səbəb olmuşdu (3, 153).

Azərbaycanın şəhərlərində iqtisadi təkamül gücləndikcə ticarət və sənətkarlıq tam ayrılaraq sərbəst peşə sahələrinə çevrilmiş və onlar hər biri sosial durumlarına görə ayrıca təbəqə şəklində təşəkkül tapmaqla getdikcə özləri də müxtəlif kateqoriyalara bölünmüşdülər.

Güney Azərbaycandan keçən karvan yollarının giriş və çıxışlarında, ölkə daxilində hərbi-strateji əhəmiyyət kəsb edən körpülərdə, şəhərlərdə gömrük məntəqələri fəaliyyət göstərirdi. Belə ki, mükəmməl bir gömrük sistemi mövcud idi. Ancaq ölkə miqyasında sosial-iqtisadi, siyasi, ideoloji böhranlar gömrük sistemindən də yan keçmir və bu sistem erroziyaya uğrayırdı. Cavadda, Naxçıvan şəhəri yaxınlığında Təbrizə gedən karvan yolunda, Mərənddə, Miyanədə, Təbriz şəhərində gömrük məntəqələri mövcud olmuşdur (5, 76-83).

Səfəvilər dövründə Azərbaycanın güney şəhərlərində sosial-iqtisadi inkişafa uyğun idarə orqanları vardır. Şəhərlərdəki mülki-inzibati orqanlar inkişafa uyğun təkmilləşmiş, onların arasında səlahiyyət bölgüsü əsasında hüquqi statusları müəyyənləşdirilmişdi. Xan, kələntər, darğa, möhtəsib, nəqib şəhərlərin idarə olunmasında müstəsna rola malik idilər. Onların idarə səlahiyyətləri dövrün qanunları və şahın sərəncamları əsasında müəyyən edilərək tənzimlənirdi (5, 102-121).

Danışılan dövrdə Azərbaycan şəhərlərində memarlıq və incəsənətin ayrı-ayrı sahələri tərəqqi etməkdə idi. Azərbaycanın Təbriz, Ərdəbil, Qəzvin, Marağa, Urmiya və başqa şəhərlərində şəhərsalma işi genişlənmiş, onlar dövrün memarlıq beşiyinə çevrilmişdi. Memarlığa yeni meyllər özünü göstərməklə şəhərlərdə məscid, came və məqbərə, türbə, xatirə tikililərində istifadə olunan inşaat işləri daha da təkmilləşmişdir. Məscid və türbələrdən ibarət memorial səciyyəli kompleks tikililər üstünlük təşkil etməyə başlamışdı. Daxili və xarici ticarət yüksəlişi ilə bağlı karvansara, müxtəlif çeşidli bazar

kimi tikililər xüsusi əhəmiyyət daşıyırdı. Bu tikililərdə nəbati ornamentlər əsas yer tutmağa başlayırdı. Mülki tikililər içərisində şah və əyan sarayları, hamamlar da xüsusi əhəmiyyət kəsb edirdi (7, 13-84).

Dövrün səyyah gündəliklərindən aydın olur ki, güney şəhərlərimizdə qədim söz sənətinin inkişafı ilə səciyyəvi olaraq Azərbaycan türkcəsinin işlənmə sahəsi daha da genişlənmişdi. Əbəs deyil ki, Tavernye Azərbaycan (türk-A.B.) dilinin siyasət dili olduğunu yazmışdır. Güney şəhərlərində məktəb və maarif də getdikcə inkişaf edirdi. Evliya Çələbinin qeyd elədiyi kimi, təkcə Təbriz şəhərində 47 mədrəsə fəaliyyət göstərirdi. Bu dövrdə Azərbaycan musiqi mədəniyyəti gözəl ifaçılıq məharətinə malik olan xanəndələri, rəqqasələri ilə tanınırdı (6, 598; 4, 23).

XVI-XVII yüzilliklərdə Azərbaycanın güney şəhərlərində elmi biliklər də inkişaf edir və onun yeni sahələri meydana gəlirdi. Azərbaycanda elm və təhsilin yüksək inkişaf səviyyəsi Avropa səyyah və diplomatlarının da diqqətindən kənarda qalmamışdır. Hollandiyalı Yan Sterys azərbaycanlılar və iranlılar haqqında yazırdı: "Onlar, ümumiyyətlə, son dərəcə elmli <...> elmə, incəsənətə meyllidirlər". Səfəvilər dövründə dövlət səviyyəsində də elmin inkişafına qayğı mövcud idi. I Şah İsmayıl və I Şah Abbas hətta Marağa rəsədxanasının bərpa olunması haqqında göstərişlər vermiş və ancaq bərpa işinin həyata keçirilməsi baş tutmamışdır. Buna baxmayaraq, astrononmik biliklər zənginləşir, bu sahədə Vəliyyəddin Məhəmməd ibn Əli ibn Salim Şəbüstəri (?-1582) kimi elm adamları, mükəmməl əsərlər yazır və holşteynli elçi Adam Olearinin bildirdiyi kimi, mədrəsələrdə astronomiya tədrisində qlobusdan da istifadə olunurdu. Mədrəsələrdə Əbu Əli ibn Sina (980-1037) kimi görkəmli təbiblərin də əsərləri tədris olunurdu. Bu isə əvvəlki dövrlərdə olduğu kimi, XVI-XVII yüzilliklərdə də tibb elminin inkişafına və görkəmli həkimlərin meydana gəlməsinə müsbət təsir göstərmişdir. Evliya Çələbiyə görə Təbrizdə 1200 nəfər təbib fəaliyyət göstərirdi. Şardenin qeyd etdiyi kimi, şəhərdə üç böyük xəstəxana vardı (7, 120-129).

XVI-XVII yüzilliklərdə Azərbaycanın güney şəhərləri xalqımızın zəngin mənəvi mədəniyyətinin beşikləri idi. Dövrün səyyahlarının əksəriyyəti məhz bu şəhərlərdə hərbi-idman oyunları, müxtəlif əyləncələr, dini və dünyəvi bayramların keçirilməsini, habelə, dini mərasimlərin icrasını müşahidə etmiş və bu barədə əldə etdikləri məlumatları gündəliklərinə yazmışlar. İ.B.Tavernye, İ.Şarden, A.Oleari və digər səyyahların gündəliklərində Azərbaycan şəhərlərində Novruz bayramının təntənəli keçirildiyi və bu bayramın islama qədər də mövcud olması haqqında maraqlı məlumatlar verilmişdir. Mənəvi mədəniyyətimizin əsas qollarından olan oyun və əyləncələr də şəhərlərdə geniş yayılmış, əslində bu oyunların çoxu hərbi vətənpərvərlik mahiyyəti kəsb edirdi. Mənəvi dəyərlərimiz içərisində Qurban və Ramazan bayramları da xüsusi əhəmiyyət kəsb etməklə, mənəvi mədəniyyətin zənginliyinin göstəricisi hesab edilməlidir.

## ƏDƏBİYYAT

1. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı: Şərq-Qərb, 2007, s. 344.
2. Venesiyalılar Şah Təhmasib sarayında. İngilis dilindən tərcümə, ön söz, giriş və şərhlər AMEA-nın müxbir üzvü Oqtay Əfəndiyevindir. Bakı: Maarif, 2005, s. 747.
3. Onullahi S.M. XII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi. Bakı: Elm, 1982, s. 270.
4. Evliya Çələbi. Səyahətnamə. Türk dilindən işləyəni və şərhlərin müəllifi tarix elmləri doktoru, professor S.Onullahi. Bakı: Azərbaycan Dövlət nəş., 1997, s. 88.
5. Baxşəliyev A. Səfəvi dövlətinin sosial-iqtisadi həyatı və beynəlxalq əlaqələri. Bakı: Azərbaycan Pedaqoji Universiteti, 2009, s. 274.
6. Səfərname-ye Tavernye. Tərcome-ye Əbuturab Nuri. İsfahan, h. 1336.
7. Baxşəliyev A. Güney Azərbaycan şəhərlərinin mədəni həyatı səyyah gündəliklərində (XVI-XVII yüzilliklər). Bakı: Elm, 2003, s. 181.

## ОБЩИЙ ВЗГЛЯД НА СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКУЮ И КУЛЬТУРНУЮ ЖИЗНЬ ГОРОДОВ ЮЖНОГО АЗЕРБАЙДЖАНА

**А.Б.БАХШАЛИЕВ**

### РЕЗЮМЕ

Несмотря на то, что в XVI-XVII вв. в экономической жизни Южных городов Азербайджана торговля и ремесло имели особое значение, эти города, в основном, сохраняли свой полуаграрный характер. Внутренние и внешние факторы играли положительную роль в экономическом росте городов, но иногда они становились причиной их падения. Экономический кризис, охвативший в последние годы XVII века страны Ближнего Востока, не обошел стороной и города Азербайджана.

Города, будучи экономическими центрами своего времени, являлись также культурными центрами.

**Ключевые слова:** Азербайджан, Марага, Шах Аббас I

## GENERAL REVIEW OF THE SOCIAL-ECONOMICAL AND CULTURAL LIFE OF THE SOUTHERN CITIES OF AZERBAIJAN

**A.B.BAKHSHALIYEV**

### SUMMARY

Although trade and handicraft assumed special importance in the economical life of the southern cities of Azerbaijan in XVI-XVII centuries, they kept their semi-agrarian character. Domestic and foreign factors exerted positive impact on the economical evolution of the city, but it sometimes caused decline, too. Economical crisis in the countries of Middle East did not pass by Azerbaijani cities, either.

Cities were economical and cultural centers of the time.

**Key words:** Azerbaijan, Maragha, Shah Abbas